# Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yaxın günlərdə müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini qəbul edib. Əvvəlcə görüş iştirakçılarını salamlayan cənab Prezident belə görüşlərin hər il ənənəvi xarakter daşıdığını bildirmiş və səfirlərdən xahiş etmişdir ki, onun salamlarını və xoş arzularını təmsil etdikləri ölkələrin dövlət və hökumət başçılarına çatdırsınlar.

Cənab ölkə başçısı görüşdəki çıxışında qeyd etmişdir ki, səfirlərin təmsil etdiyi ölkələrlə Azərbaycanın çox sıx əlaqələri var. Azərbaycan bu ölkələrlə ikitərəfli formatda gözəl əməkdaşlıq edir. Ölkənin mövqeyi bundan ibarətdir ki, İslam həmrəyliyi bundan sonra daha da möhkəmlənsin, müsəlman ölkələri bir-birinə daha böyük dərəcədə dəstək versinlər. Azərbaycan tərəfi bu dəstəyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində görür və yüksək qiymətləndirir.

Cənab Prezident çıxışında qeyd etmişdir ki, eyni zamanda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi region üçün ən böyük təhlükə mənbəyidir. Ona görə də bu münaqişə beynəlxalq hüquq normaları və prinsipləri və BMT Təhlükəsizlik Şurasının qətnamələri çərçivəsində öz həllini tapmalıdır. Cənab Prezident çıxışına davam edərək demişdir: «Ədalət bərpa olunacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək».

Ölkə başçısı çıxışında keçən bayramdan ötən dövr ərzində ölkənin həyatında bir sıra əlamətdar hadisə baş verdiyini də qeyd etmişdir. Bakıda ən böyük məscid Heydər Əliyev məscidi tikilib istifadəyə verilmişdir. Azərbaycan dövləti öz tarixi keçmişinə diqqətlə yanaşaraq tarixi məscidlər əsaslı şəkildə təmir olunur, bərpa edilir. Azərbaycanda yerləşən və 743-cü ildə tikilərək dünyanın ən qədim məscidlərindən biri olan Şamaxı məscidi də təmir və bərpa olunmuşdur.

Cənab Prezident çıxışının sonunda bir daha səfirləri salamlamış və fəaliyyətlərində uğurlar arzulamışdır.

Sonra İraqın Azərbaycandakı səfiri Heydər Şiyə Qubeysi Əl Barrak çıxış edərək qəbula görə İlham Əliyevə təşəkkürünü bildirmişdir. Ramazan ayı münasibətilə İslam Əməkdaşlıq təşkilatına üzv ölkələrin səfirləri adından təbrikini çatdırmış, Dağlıq Qarabağ münaqişəsinin tez bir zamand sülh yolu ilə həll edilməsini arzulamışdır.

Sonda xatirə şəkli çəkdirilmişdir.

*QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2015-ci İLİN İYUL AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ QƏBULLARIN VƏ GÖRÜŞLƏRİN QRAFİKİ*

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər, qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Məlikli kəndi | 07.07.2015 | Kənd məktəbi, saat $15^{00}$ |
| Məmmədağalı kəndi | 14.07.2015 | Kənd məktəbi, saat $15^{00}$ |
| Nohurqışlaq kəndi | 21.07.2015 | Kənd məktəbi, saat $15^{00}$ |
| Seyidqışlaq kəndi | 28.07.2015 | Kənd məktəbi, saat $15^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə, mədəniyyət və turizm şöbələrinin, hüquq-mühafizə orqanlarının, əhalinin sosial müdafiəsi, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol istismar, baytarlıq, qaz istismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.

# "Akademik Zərifə Əliyeva" miniatür kitabının ikinci nəşri çapdan çıxıb

Respublika "Kitab" Cəmiyyəti tərəfindən hazırlanan "Akademik Zərifə Əliyeva" adlı miniatür kitabın ikinci nəşri "İndigo" mətbəəsində çapdan çıxıb.

AZƏRTAC xəbər verir ki, kitabın müəllifi yazıçı-publisist, Milli Məclisin deputatı Hüseynbala Mirələmovdur.

Yaxınlarının, doğmalarının, həmkarlarının, onu tanıyanların xatirələri əsasında yazılmış miniatür kitab "Əbədiyyət dastanı", "Zərifə və Heydər", "Unudulmaz insan", "İstedad–tale–ömür" və "Son məktub" adlı bölmələrdən ibarətdir.

Nəşrin "Əbədiyyət dastanı" adlı birinci bölməsində Zərifə Əliyevanın yeniyetməlik, tələbəlik illəri, müharibə dövründə respublikada yaradılmış hospitallarda rəfiqələri ilə birlikdə yaralı döyüşçülərə yardımı, başqalarının dərdinə şərik olmaq, kədərinə acımaq, köməyinə çatmaq kimi yüksək insani keyfiyyətləri qələmə alınıb. Atası - dövrünün böyük ziyalısı, dövlət xadimi Əziz Əliyev, müəllimi professor Umnisə Musabəyova ilə bağlı xatirələr, Zərifə Əliyevanın peşəkar göz həkimi kimi formalaşmasında onların məsləhətləri, həkimxəstə münasibətlərində həssaslıq, səmimiyyət, gərgin dəqiqələrdə ona bəslənilən ümid maraqlı epizodlarla oxucuya çatdırılır.

Kitabın "Zərifə və Heydər" bölməsində iki böyük şəxsiyyətin ömür yoluna nəzər salınır. Sevil Əliyevanın anası Zərifə xanım haqqında söylədiyi fikirlər oxucuları daha maraqlı məqamlarla tanış edir.

Nəşrdə akademik Zərifə Əliyevanın həkim, alim, pedaqoq kimi xarakterini səciyyələndirən xüsusiyyətlər tibb elmləri doktoru, professorlar A.Dobromıslovun, Z.Skripçenkonun, akademik V.Şmelyovanın, elm xadimləri N.Şulpinanın, M.Krasnovun, Tamerlan Əliyevin, Cəmil Əliyevin xatirələri əsasında diqqətə çatdırılıb.

Kitabda Zərifə Əliyeva haqqında ən maraqlı və dəyərli fikirlər ümummilli lider Heydər Əliyev tərəfindən söylənən xatirələrdir. Bu xatirələr "Unudulmaz insan" və "İstedad-tale-ömür" bölmələrində toplanıb.

Nəşrin "Son məktub" adlı bölməsi Zərifə Əliyevanın son məktubundan sətirlər ilə başlayır: "Məndən ötrü narahat olma, uşaqlara yaxşı bax. Unutma ki, mən səni sevirəm...".

Müəllif yazır ki, Zərifə Əliyeva öz işıqlı xarakteri ilə taleyin onunla eyni yolda addımlamağı qismət etdiyi adamlarında, öz ömür yolunda onunla bircə dəfə qarşılaşanların da qəlbində parlaq bir mələk kimi silinməz iz qoyub.

## 2 iyul—Azərbaycan Polisi Günüdür

# Polisimiz dövlətmizin etibarlı dayağıdır

Böyük önəm verib qiymətləndirdiyimiz Polis Günü ölkəmizdə əmin-amanlığın əsas təminatçısı olan daxili işlər orqanları əməkdaşlarının vətənə və vəzifə borcuna sədaqətinin rəmzi, eyni zamanda, hər bir Azərbaycan vətəndaşının bayramıdır. 1918-ci il iyulun 2-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə təsis edilmiş polis orqanları mərdlik, cəsarət və rəşadətlərlə zəngin bir yol keçərək, həm cümhuriyyət, həm də sovetlər birliyi dövründə öz şərəfli missiyasını layiqincə yerinə yetirmiş, cinayətkarlıqla mübarizənin ön sıralarında duraraq daxili asayişin və təhlükəsizliyin təmin edilməsində mühüm rol oynamış, böyük təcrübə qazanmış, təşkilati cəhətdən möhkəmlənmişdir.

Bütün bunlarla bərabər polisin şanlı tarixinin ən mühüm mərhələləri, sözsüz ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1969-cu ildə respublikaya rəhbər seçilməsindən sonra Daxili İşlər Nazirliyinə dövlət qayğısı güclənməklə xalqa sədaqətli kadrların irəli çəkilməsinə, vətənpərvərlik və milli mənəvi dəyərlər ruhunda tərbiyəsinə xüsusi diqqət yetirildi. Bunun nəticəsi idi ki, Dağlıq Qarabağ münaqişəsinin ilk günlərindən Ermənistanın təcavüzünə qarşı mübarizənin ön sıralarında mərdliklə döyüşən polis yüzlərlə şəhid versə də, öz vətəndaşlıq borcunu sonadək yerinə yetirdi.

1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan ümummilli liderimizin başladığı böyük quruculuq işləri digər sahələrdə olduğu kimi, daxili işlər orqanlarının fəaliyyətində də öz əksini tapdı.

Lakin müstəqilliyimizin ilk illərində ölkədəki xaos polisdən də yan ötməmişdi. O vaxtkı hakimiyyətdəkilərin səriştəsiz idarəçiliyi ucbatından ölkədə güc strukturlarının, o cümlədən daxili işlər orqanlarının fəaliyyəti demək olar ki, hiss olunmurdu. Ən acınacaqlısı isə mühüm vəzifələrə təsadüfi adamların önə çəkilməsi idi. Həmin illərdə bir çox peşəkar polis zabitlərinin daxili işlər orqanları sıralarını tərk etmələrinin əsas səbəblərindən biri bu idi. Yalnız Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra hüquq-mühafizə orqanlarının, o cümlədən daxili işlər orqanlarının əsaslı keyfiyyət dəyişikliklərinin təməli qoyuldu, qanunçuluq və dövlətçilik prinsipləri ön plana çəkildi, ölkədəki hərc-mərclik və özbaşınalıqlara qarşı qətiyyətli mübarizəyə start verildi. Qısa zaman kəsiyində cinayətkarlığın artan dinamikasının qarşısı qətiyyətlə alındı, respublikada tüğyan edən mütəşəkkil cinayətkarlığa, ictimai-siyasi sabitlik üçün təhlükə doğuran zərərli meyillərə, qanunsuz silahlı birləşmələrə qarşı uğurlu və təxirəsalınmaz tədbirlər həyata keçirildi. Tezliklə ölkədə sabitlik bərqərar edildi.

Bu gün daxili işlər orqanlarının əməkdaşları ümummilli lider Heydər Əliyevin və onun ən layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin tövsiyə və tapşırıqlarını yüksək səviyyədə yerinə yetirir, respublikada kriminogen durumun nəzarətə götürülməsi və ictimai asayişin yaradılması istiqamətində mühüm nailiyyətlər qazanmışlar.

Qeyd etmək lazımdır ki, Azərbaycan polisinin ayrılmaz və mübariz hissəsi olan Qəbələ polisi böyük və şanlı tarixə malikdir. Həm sovetlər dövründə, həm də müstəqillik dövründə Qəbələ Rayon Polis Şöbəsinin əməkdaşları Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində, vətəndaşların təhlükəsizliyinin qorunmasında daim fəal və fədakar mövqe tutmuşlar. Bizim asayiş keşikçiləri bu gün də üzərlərinə düşən vəzifələri inamla yerinə yetirir, vətəndaşların rahat və təhlükəsiz yaşayışının təminatı üçün bütün zəruri profilaktik tədbirləri həyata keçirirlər. Əldə edilən nailiyyətlər cari ilin birinci yarısında da qorunub saxlanılmışdır.

**(Ardı 6-cı səhifədə).**